Tamaşaçı təəssüratı

# Səhnədə “Ağ-qara” – həyatda görünməyən yara

**Ağ və qara.. Ağ rəng göyərçinə, qara isə parçalanmış buludlara bənzəyir. Bu buludlar yavaş-yavaş sökülüb yerə tökülür. Mən əlimə almağa çalışdıqca daha da parçalanır. Hə! Uzaqdan görürəm. Lap uzaqlardan bir qadın diqqətlə mənə baxır. Yox, bəlkə də, sən elə düşünürsən, özünü yanıltma.**

Qadın o qədər qorxurdu ki, mən ona toxunmaq istədikdə titrək əlləri ilə məni itələdi. Mənə “Günahkarsan” dedi!

– Mən? Mən, axı...

– Sən... Siz! Sizlər! Bu torpağın qoxusunu hiss edirsən? Bax.. nəfəssiz qalan balıqlar, balaca tısbağa... Bax, ovcumun arasından yavaş-yavaş getdi. Görürsən? Qaça bilmir. Siz insanlar günahkarsız! Yalnızca sözlərinizlə deyil, sərgilədiyiniz hər bir davranışla, atdığınız hər bir addımla onları məhv edirsiniz.

Qadın danışdıqca, sanki, ruhum bədənimdən qopub, ona sarılmaq istəyirdi. Acıları hiss edən insanlar bəzən ölümlə yaşamağın arasında qaldığı kimi, o balaca canlılar da savaşırdı. Qadın torpağı əlləri ilə götürüb, saçlarına tökürdü, göz yaşları yanaqlarını islatdıqca sinəsində tutduğu yavru tısbağaya baxırdı.

Ətrafı qaranlıq bürümüşdü. Gözə görünən sadəcə torbada olan boş qutular idi. Ayaq basdığım hər yeri çirkləndirən bu boş qutular. Qadını kənardan xeyli izlədim. Əllərində tutduğu o boş, mənasız zibillər, bağrına basdığı qanadı qırılmış quş və tısbağa. Heç nə deyə bilmədim, çünki bəzi kəlmələr göydəki şimşək çaxan zamandan toza çevrilir...

Bu duyğuları bir tamaşaçı kimi, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında “Bölgə teatrlarının Bakı premyeraları” layihəsi çərçivəsində səhnə əsərinə baxan zaman yaşadım. Mingəçevir Dövlət Dram Teatrının direktoru, Əməkdar artist İntiqam Soltanın quruluşunda ekologiyanın qorunmasının vacibliyindən bəhs edən “Ağ və qara” mono-pyesinin hadisələri məni bu qarışıq keçidlərə apardı. Aktrisa Lalə Abuşovanın tamaşada canlandırdığı obraza baxdıqca göz yaşlarımı zorla saxlayırdım. Ətrafı çirkləndirən hər şey bəlkə də ona acımasız insanları xatırladırdı. İnsan cəllad ola bilərmi? Bu sual o qədər insanı düşündürür ki, bəzən ruhumda yaşayan ikinci Səmanı belə sorğuya çəkirəm.

Lalə xanım səhnəni qollarının arasına almaqla yanaşı, biz tamaşaçılara da səhnənin susan divarlarını dinlətməyə çalışırdı. Səhnə susqundur, amma aktyorların susmağa deyil, danışmağa, çağırış etməyə ehtiyacı var! Necə ki, Lalə Abuşova o səhnədə bizlərə çağırış etdiyi kimi.



Qələmim yazır, amma zehnimdə yarımçıq qalan sözlər var. Aktrisanın təqdim etdiyi hadisələr sanki bir kino lenti kimi gözlərim önündən keçir, zehnimi məşğul edir. Yaşantıları hiss etmək başqa, amma ağrını canında duyub, susmaq tamamilə başqadır. Biz təbiətə, ekologiyaya qəsd hallarına bəzən çox laqeyd yanaşırıq.

Bu tamaşa da bizim görünməyən yaralarımızı açdı, amma biz onları hiss etmədik, çünki torpağın altında, üstündə, coşqun dənizdə rəqs edib, pərvazlanan canlıların yanında susmalı idik...

*Səma MUĞANNA,*
*AYB üzvü, Prezident mükafatçısı*